Ən çox oxunan qəzet

❒ № 21 (4474), 2017-ci il

Qiyməti 30 qəpik

ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

Qəzet 1996-cı il noyabrın 1-dən çıxır

www.sherg.az

4 fevral
(şənbə)

6-7 piyada il ərzində eyni yerdə qaydanı pozub

Yol polisi: "Piyadaların 50 faizi cəriməni ödəmirsə, deməli, onlarda arxayınlıq yaranıb"

"2016-cı ildə Bakı şəhəri üzrə 138 min piyada yol-hərəkət qaydasını pozduğuna görə inzibati məsuliyyətə cəlb edilib. Ancaq onlardan 50 faizə qədəri cərimələri ödəməyib".

(Səh.5)

Metro və avtobuslarda gediş haqqı artırılır?

Bakı Metropolitenində və şəhərdaxili marşrut avtobuslarında gediş haqqının artırılması ilə bağlı Tarif (qiymət) Şurasına müraciət olunmayıb.

Bu barədə Trend-ə Tarif Şurasından məlumat verilib. Şuradan bildiriblər ki, hazırda bu məsələnin müzakirəsi gündəmdə deyil.

(Səh.6)

"İran odla oynayır"

Donald Tramp: "Mən Obama kimi olmayacam"

ABŞ prezidenti Donald Tramp İranın ünvanına növbəti dəfə sərt ifadələr işlədib.

D. Tramp özünün "Twitter" səhifəsində aşağıdakıları yazıb: "İran odla oynayır. Onlar prezident Obamanın İrana münasibətdə necə "xeyirxah" olduğunu lazımınca qiymətləndirmirlər.

(Səh.3)

Azərbaycan XİN reksiya verdi

"Lapşinin məsələsini siyasiləşdirmək cəhdləri yanlışdır"

"Bloqger Aleksandr Lapşinin əməllərində kifayət qədər cinayət tərkibli elementlər olduğuna görə, onun barəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq cinayət işi açılıb və İnterpol xətti ilə beynəlxalq axtarışa verilib".

Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.

(Səh.2)

Türkiyə səfirinin müşaviri "Şərq"in qonağı oldu

Dünən Türkiyənin Azərbaycandakı səfirliyinin mətbuat xidmətinin müşavari Hamid Karadeniz "Şərq" qəzetinin qonağı olub.

Sherg.az xəbər verir ki, redaksiya heyəti ilə tanışlıqdan sonra səfirlik nümayəndəsi 15 iyul hadisələrində qardaş ölkənin milli dövlətçilik maraqlarını qoruduğu üçün qəzetin baş redaktoru Akif Aşırlıya plaket təqdim edib.

(Səh.4)

Günün içindən ● Günün içindən ● Günün içindən ● Günün içindən

"Lapşini Azərbaycana verməliyik"

Lukaşenko: "Biz onu buraxa da bilərik, amma bu, düzgün olmayacaq"

"Belarusun Rusiya və İsrail vətəndaşlığı olan bloqger Aleksandr Lapşını Azərbaycana verməməsi üçün heç bir əsası yoxdur".

Bu sözləri Belarus prezidenti Aleksandr Lukaşenko deyib.

(Səh.4)

8-ci, 9-cu sinif şagirdləri barlarda, gecə klublarında gün keçirirlər

"Burda elmdən, təhsildən söhbət edilməyəcək ki! Uşaqlar belə mühitdə formalaşır və nəticəsi də çox pis olur"

(Səh.9)